- 2. Səmədov Samir Faiq oğlu - İBR-2M İmpuls reaktorunun 4-cü kanalı **YuMO**-dakı iki detektorlu spektrometrdə kiçik bucaqlardan neytron səpilməsi (SANS) və kiçik bucaqlardan Rentgen səpilməsi (SAXS) metodlarının nəzəri və praktiki baxımından öyrənilməsi, kiçik elmi işçi
- 3. Nəbiyev Asif Araslı oğlu- Frank adına neytron fizikası laboratoriyasında faza keçidlərinin elektronoqrafiya və neytronoqrafiya metodu ilə tədqiqi, kiçik elmi işçi
- 4. Əkbərov Ramil Ələddin oğlu – Yüksək enerjilər fizikası laboratoriyasında MSFD diodların elmi əsaslarının işlənməsi, kiçik elmi işçi
- 5. Nuriyev Səbuhi Musa oğlu- Yüksək enerjilər fizikası laboratoriyasında MSFD diodların elmi əsaslarının işlənməsi, kiçik elmi işçi
- 6. Mirzəyev Nicat Aqil oğlu- Neytron Fizikasi Laboratoriyasinin  Neytron Aktivləşdirmə Analizi sektorunda metodikaların mənimlənilməsi, kiçik elmi işçi

# BEYNƏLXALQ NÜVƏ İNFORMASİYA MƏRKƏZİ – İNİS AEBA

2017-ci hesabat ilində AMEA Radiasiya Problemləri İnstitutunda fəaliyyət göstərən Beynəlxalq Nüvə Məlumatlar Mərkəzi (INIS) öz işini uğurla davam etdirmişdir. Ölkə üzrə nüvə tədqiqatlarına dair konfrans materialları, o cümlədən elmi jurnallar, kitablar toplanıb, təhlil edilib və AEBA-nın Vyanadakı baş ofisinə göndərilib. Eyni zamanda AEBA-dan alınan INIS-in məlumat bazasından müxtəlif elektron formatda olan materiallar mərkəz tərəfindən müvafiq qruplar üzrə çeşidlənib yığılıb. INIS tərəfindən toplam olaraq 2017-ci il ərzində 50 yeni məqalə və elmi innovasiyalar barədə məlumat AEBA-ya göndərilmişdir. Təhlil edilib göndərilən jurnal və konfrans materiallarının siyahısı aşağıda göstərilmişdir :

1) Journal of Physics (Fizika Jurnalı)
2) Journal of Radiation Researches (Scientific Journal)
3) Stratigraphy and sedimentology of oil-gas basins
4) Xəbərlər-Yer Elmləri Jurnalı

# KADR POTENSİALI

| İŞÇİLƏRİN ÜMUMİ SAYI | MÜXBİR ÜZV | ELMLƏR DOKTORU | FƏLSƏFƏ DOKTORU | ELMİ İŞÇİ | GƏNC MÜTƏXƏSSİSLƏR | İNSTİTUTUN KADRLARININ ORTA YAŞ HƏDDİ |
|---|---|---|---|---|---|---|
| 279 | 3 | 19 | 61 | 117 | 124 | 43 |

2017-ci il ərzində İnstitutda 279 işçi çalışmışdır ki, onlardan da 117 nəfəri elmi işçidir. Elmi işçilərdən 19 nəfəri elmlər doktoru, 61-nəfəri elmlər namizədidir.

# KADR HAZIRLIĞI

| Doktoranturada təhsil alır | | Xaricdə doktoranturada təhsil alanlar | Xaricdə elmi təcrübə keçənlər | Doktoranturaya yeni qəbul | | Doktoranturanı bitirib | Dissertasiya müdafiə olunub | | Müdafiəyə hazırlanıb | | Dissertantlar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | O cümlədən | | O cümlədən | | |
| Əyani | Qiyabi | | | Əyani | Qiyabi | | Fəlsəfə doktoru | Elmlər doktoru | Fəlsəfə doktoru | Elmlər doktoru | |
| 3 | 7 | 2 | 5 | - | - | 3 | 6 | 2 | 2 | 2 | 28 |

# İNSTİTUTUN ƏMƏKDAŞLARININ İŞTİRAK ETDİYİ MÜHÜM TƏDBİRLƏR

**RPİ-nin direktoru, AMEA-nın müxbir üzvü O.Ə.Səmədov**

**Avstriya, Vyana şəhəri.** Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin Baş Konfransının 61-cı sessiyasında iştirak etmək üçün (**18.09.17-24.09.17**)

**Qazaxıstan, Almata şəhəri.** "Nüvə Elmi və texnologiyalar" mövzusunda keçiriləcək Beynəlxalq forumda iştirak etmək üçün **(11.09.17-16.09.17)**

**Elmi işlər üzrə direktor müavini, f.-r.e.n. R.N.Mehdiyeva**

Almaniya, Karlsruhe şəhəri. Avropa Komissiyasının Qapalı Tədqiqatlar Mərkəzinin keçirəcəyi nüvə təhlükəsizliyi üzrə Beynəlxalq texniki ekspertlər qrupunun görüşündə iştirak etmək üçün **(27.06.17-30.06.17)**

**Şöbə müdiri f-r. e.n. İ.Ə.Qabulov**

**Almaniya, Karlsruhe şəhəri.** "Nüvə təhlükəsizliyi və mühafizəsi bölməsi" tərəfindən "Nüvə materiallarının hərtərəfli ekspertizasına dair stimulyasiya məşğələsi"ndə iştirak etmək üçün **(01.05.17-06.05.17)**

**Avstriya, Vyana şəhəri.** Atom Enerjisi üzrə Beynəlxalq Agentliyindən alınmış dəvətnaməyə əsasən "Tədqiqat rekordlarına dair təhlükəsizlik tələblərinin yerinə yetirilməsi" mövzusunda keçiriləcək görüşdə iştirak etmək üçün (**15.05.17-20.05.17**)

**Avstriya, Vyana şəhəri.** Atom Enerjisi üzrə Beynəlxalq Agentliyindən alınmış dəvətnaməyə əsasən "Radioaktiv mənbələrin təhlükəsiz idarə edilməsi" mövzusunda keçiriləcək görüşdə iştirak etmək üçün (**26.06.17-30.06.17**)

**Avstriya, Vyana şəhəri.** Atom Enerjisi üzrə Beynəlxalq Agentliyindən (AEBA) alınmış dəvətnaməyə əsasən "Nüvə təhlükəsizliyi üzrə Beynəlxalq Təhsil Şəbəkəsi"nin illik iclasında iştirak etmək üçün (**24.07.17-28.07.17**)

**Qazaxıstan, Almata şəhəri.** "Nüvə Elmi və texnologiyalar" mövzusunda keçiriləcək Beynəlxalq forumda iştirak etmək üçün **(11.09.17-16.09.17)**

**Avstriya, Vyana şəhəri.** Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin Baş Konfransının 61-cı sessiyasında iştirak etmək üçün (**18.09.17-22.09.17**)

**Avstriya, Vyana şəhəri.** Atom Enerjisi üzrə Beynəlxalq Agentliyindən (AEBA) alınmış dəvətnaməyə əsasən "Nüvə Materiallarının və NüvəQurğularının Fiziki Mühafizəsi" adlı Beynəlxalq konfransda iştirak etmək üçün **(12.11.17-18.11.17)**

# İNSTİTUTUN ƏMƏKDAŞLARININ İŞTİRAK ETDİYİ MÜHÜM TƏDBİRLƏR

**Laboratoriya rəhbəri, AMEA-nın müxbir üzvü İ.İ.Mustafayev**

**Moldova, Kişinyov şəhəri.** “Ekoloji kimya və Ətraf mühit kimyası” üzrə 6-cı Beynəlxalq Konfransda iştirak etmək üçün **(01.03.17-04.03.17)**

**ABŞ, Miçiqan, Nyu-York və Hyuston Universitetləri.** ABŞ Dövlət Departamentinin İnternational Visitors Leadership Proqram (“İVLP”) çərçivəsində həyata keçirilən layihə üzrə **(29.04.17-10.05.17)**

**Macarıstan, Budapeşt şəhəri.** Nairobidə BMT-nin Ətraf Mühit Assambleyasında keçiriləcək tədbirdə iştirak etmək, Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üzrə məruzə hazırlamaq üçün **(09.11.17-10.11.17)**

**Laboratoriya rəhbəri k.e.d. Ş.M.Məmmədov**

**Rusiya, Volqoqrad şəhəri.** Volqoqrad Texniki Universitetində Elmi-tədqiqat işləri ilə əlaqədar olaraq (**26.01.17-02.02.17**)

**Laboratoriya rəhbəri, k.e.n. A.S.Abdullayev**

**Ukrayna, Kiyev şəhəri.** Ukraynanın Milli EA-nın Hüceyrə biologiyası və gen mühəndisliyi İnstitutunun “Siqnal sistemlərinin Biofizikası” laboratoriyası ilə İnstitutun “Radioprotektorlar” laboratoriyası arasında bağlanmış müqaviləyə əsasən birgə elmi müzakirələrdə iştirak etmək məqsədilə (**22.05.17-03.06.17**)

**Laboratoriya rəhbəri, k.e.n. F.Y.Hümbətov**

**Avstriya, Vyana şəhəri.** “Çirklənmiş ərazilrin daşınan qamma spektrometrlərlə xarakterizə olunması” mövzusunda Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin təşkil etdiyi Simpoziumda iştirak etmək üçün (**06.11.17-10.11.17**)

**Şöbə rəhbəri, f.-r.e.d. Ə.Q.Abiyev**

**Türkiyə, İstanbul şəhəri.** “Darüşşafaka Eğitim Kurumları”nın təşkil etdiyi olimpiada yarışmasında mühazirə ilə çıxış etmək məqsədilə. (**22.05.17-25.05.17**)

# İNSTİTUTUN ƏMƏKDAŞLARININ İŞTİRAK ETDİYİ MÜHÜM TƏDBİRLƏR

**Şöbə müdiri, kimya üzrə f.d., Ə.C.Mikayılova**

**Rusiya, Sankt-Peterburq şəhəri**. B.P.Konstantinov adına Peterburq Nüvə Fizikası İnstitutunda «51-я Школа ПИЯФ по Физике Конденсированного Состояния» (Школа ФКС-2017) – Konfransında iştirak etmək üçün (**11.03.17-16.03.17**)

**Rusiya, Kazan şəhəri**. Kazan Federal Universiteti tərəfindən keçiriləcək "Seqnetoelektriklərin fizikası XXI Ümumrusiya konfransı"nda iştirak etmək üçün (**25.06.17-30.06.17**)

**Almaniya, Rostok şəhəri.** Rostok Universitetində keçiriləcək "Texniki Termodinamikanın Texniki Xassələri" 6-cı Rostok Beynəlxalq konfransında iştirak etmək üçün **(17.07.17-19.07.17)**

**Belorusiya, Minsk şəhəri.** Belorusiya Milli Elmlər Akademiyasının təşkilatçılığı ilə keçiriləcək "Elmdə gənclər-2017" Beynəlxalq konfransında iştirak etmək üçün (**30.10.17-03.11.17**)

**Rusiya, Moskva şəhəri.** Rusiya Elmlər Akademiyasının təşkilatçılığı ilə keçiriləcək "Yeni materiallar" Beynəlxalq konfransında iştirak etmək üçün (**20.11.17-24.11.17**)

**Aparıcı elmi işçi, f.-r.e.d, professor R.İ.Xəlilov**

**Rusiya, Moskva şəhəri.** M.V.Lomonosov adına MDU-nun fizika və biologiya fakultələrinin alimləri ilə nəzərdə tutulmuş görüşdə, müasir cihaz və üsullarla bağlı bir sıra elmi-tədqiqat işləri yerinə yetirmək üçün (**28.01.17-12.02.17**)

**Aparıcı elmi işçi, f.-r.e.n.M.Ə. Mehrabova**

**ABŞ, Aleksandriya (Virjiniya ştatı) şəhəri.** Birkəşmiş Ştatların Patent və Ticarət Nişanı Qurumunun Qlobal Əqli Müklkiyyət Akademiyası tərəfindən keçiriləcək "Texnologiyanın Transferi: Qanun, Siyasət və Praktika" adlı seminarda iştirak etmək üçün (**28.03.17-31.03.17**)

**Aparcı elmi işçi, k.e.n. N.Q. Quliyeva**

**Moldova, Kişinyov şəhəri.** "Ekoloji kimya və Ətraf mühit kimyası" üzrə 6-cı Beynəlxalq Konfransda iştirak etmək üçün **(01.03.17-04.03.17)**

# İNSTİTUTUN ƏMƏKDAŞLARININ İŞTİRAK ETDİYİ MÜHÜM TƏDBİRLƏR

**Elmi işçi Əliyeva N.Ə.**

**Rusiya, Kazan şəhəri**. Kazan Federal Universiteti tərəfindən keçiriləcək "Seqnetoelektriklərin fizikası XXI Ümumrusiya konfransı"nda iştirak etmək üçün **(25.06.17-30.06.17)**

**Belorusiya, Minsk şəhəri.** Belorusiya Milli Elmlər Akademiyasının təşkilatçılığı ilə keçiriləcək "Elmdə gənclər-2017" Beynəlxalq konfransında iştirak etmək üçün **(30.10.17-03.11.17)**

**Rusiya, Moskva şəhəri.** Rusiya Elmlər Akademiyasının təşkilatçılığı ilə keçiriləcək "Yeni materiallar" Beynəlxalq konfransında iştirak etmək üçün **(20.11.17-24.11.17)**

**Kiçik elmi işçi Nəbizadə Z.O.**

**Qazaxıstan.** Qazaxıstanda keçiriləcək "Davamlı Üzvi çirkləndiricilər (DUZ), civə və tibbi tullantıların düzgün idarə olunması" seminarında iştirak etmək üçün **(26.06.17-01.07.17)**

**Rusiya, Moskva şəhəri.** "2017-ci il Kimya sənayesi üçün "Məsuliyyətli qayğı" Proqramının inkişaf etdirilməsində ən yaxşı təcrübələr üzrə rusca təlim seminar" tədbirində iştirak etmək üçün **(13.11.17-17.11.17)**

**Zöhrabova Ş.İ.**

**Avstriya, Vyana şəhəri.** "İNİS təlim seminar" mövzusunda keçiriləcək görüşdə iştirak etmək üçün **(09.10.17-13.10.17)**

**Kiçik elmi işçi Z.X.Dadaşov**

**Türkiyə, Ankara şəhəri.** Radioaktiv karbonun və eləcə də digər təbii izotopların təyini metodikası üzrə təcrübə keçmək üçün (**20.05.17-03.06.17**)

# İNSTİTUTDA KEÇİRİLƏN MÜHÜM TƏDBİRLƏR








AMEA Radiasiya Problemləri İnstitutunda növbəti ümumi seminar keçirilmişdir. Seminarda iştirak edən Amerika Birləşmiş Ştatlarının (ABŞ) Milli Okean və Atmosfer Administrasiyasının Qlobal Sistemlər Mərkəzinin Yer modelləşdirilməsi bölməsinin elmi əməkdaşı, Dr.Rəvan Əhmədov alimlərlə görüşmüş, laboratoriyalarda hava keyfiyyətinin tədqiqinə dair aparılmış tədqiqatlarla tanış olmuş və sözügedən seminarda "Hava keyfiyyətinin kompüter modelləşdirilməsi" mövzusunda məruzə ilə çıxış etmişdir. (20.07.2017)

# İNSTİTUTDA KEÇİRİLƏN MÜHÜM TƏDBİRLƏR







Radiasiya Problemləri İnstitutunda Çexiya Texniki Universitetinin Tətbiqi və Eksperimental Fizika İnstitutunun direktoru İvan Ştekl və bu müəssisənin keçmiş rəhbəri Stanislav Pospişil ilə görüş keçirilib (24.10.2017).

# İNSTİTUTDA KEÇİRİLƏN MÜHÜM TƏDBİRLƏR



AMEA Radiasiya Problemləri İnstitutu və Biofizika İnstitutunun birgə təşkilatçılığı ilə
“Zülalların quruluş problemləri” mövzusunda seminar keçirilmişdir.
Seminarda məruzə ilə çıxış edən Amerika Birləşmiş Ştatlarının (ABŞ)
Virciniya Universitetinin professoru Faik Musayev tədqiq etdiyi müxtəlif
zülal komponentlərinin rekombinant yolla alınması prosesi,
onların kristallarının alınması və quruluşu haqqında iştirakçılara məlumat vermişdir.
(22.11.2017)

# RESPUBLIKA DAXİLİ, ELMİ-TƏDQİQAT İNSTİTUTLARI VƏ TƏHSİL MÜƏSSİSƏLƏRİ, UNİVERSİTETLƏRİ İLƏ ƏMƏKDAŞLIQ MÜQAVİLƏLƏRİ



# İNSTİTUTUN BAĞLADIĞI ƏMƏKDAŞLIQ MÜQAVİLƏLƏRİ








AMEA Radiasiya Problemləri İnstitutu ilə Azərbaycan Texniki Universiteti arasında 5 il müddətinə elmi-texniki əməkdaşlıq yaratmaq məqsədilə müqavilə imzalanıb. (27.01.2017)

# İNSTİTUTUN BAĞLADIĞI ƏMƏKDAŞLIQ MÜQAVİLƏLƏRİ

Tbilisi State Medical University

IOVEL KUTATELADZE

INSTITUTE of PHARMACOCHEMISTRY

AMEA Radiasiya Problemləri İnstitutu ilə Gürcüstanın Respublikasının tanınmış elm müəssisəsi olan Tiflis Dövlət Tibb Universitetinin İovel Kutateladze adına Farmokokimya İnstitutu arasında əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. (09.06.2017)

# İNSTİTUTUN BAĞLADIĞI ƏMƏKDAŞLIQ MÜQAVİLƏLƏRİ









Qazaxıstan Respublikasının Energetika Nazirliyinin elmi-tədqiqat müəssisəsi olan Nüvə Fizikası İnstitutu ilə AMEA-nın Radiasiya Problemləri İnstitutu arasında əməkdaşlığa dair müqavilə imzalanıb (18.09.2017)

# DƏRC OLUNMUŞ ELMİ-TƏDQİQAT İŞLƏRİ

| ELMİ-TƏDQİQAT İŞLƏRİNİN ÜMUMİ SAYI | KİTABLAR | MONOQRAFİYALAR | MƏQALƏLƏR | TEZİSLƏR | O CÜMLƏDƏN XARİCDƏ DƏRC OLUNMUŞDUR | | | | | DÖVRİ ELMİ JURNALLAR | DƏRSLİKLƏR VƏ ELMİ-KÜTLƏVİ NƏŞRLƏR | ELMİ İŞÇİLƏRİN ƏSƏRLƏRİNƏ OLAN İSTİNADLAR |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | KİTABLAR | MONOQRAFİYALAR | MƏQALƏLƏR | TEZİSLƏR | İMPAKT FAKTORLU JURNALLARDA DƏRC OLUNMUŞ MƏQALƏLƏR | | | |
| **262** | - | - | 121 | 141 | - | - | 80 | 99 | 38 | 41 | - | 559 |

# İNDEKSLİ JURNALLARDA DƏRC OLUNMA

1. Silicon, *Springer* (1,069)
2. Physics Letters A 380/38, 3086-3091, 2016, *Elsevier*
3. Журнал физической химии (0.488)
4. Journal of Materials Research Science and Technology, Elsevier (1.909)
5. Journal of Electrostatics, Elsevier (0.863)
6. Physical B: Condensed Matter, Elsevier (1.319)
7. International Journal of Modern Physics Letters B (0.937)
8. Вопросы атомной науки и техники, сер.: «Физика Радиационных повреждённый и явлений в твердых телах» (0.186)
9. Journal Chromatography Sep.Tech (1.78)
10. European Journal of Analytical and Applied Chemistry
11. Journal European Science Review (0.442)
12. Химия Высоких Энергий (0.773)
13. Journal of Electronic Materials (German) (0.69)
14. Журнал «Неорганические Материалы» (0.524)
15. Semiconductors (0.705)
16. Международный научный журнал «Альтернативная энергетика и экология (0.146)
17. Universal Journal of Chemistry
18. Journal of Chemistry and Chemical Engineering
19. J. Biological and Chemical Research (0.876)
20. Surface Engineering and Applied Electrochemistry (0.289)
21. Жур. Перспективные материалы (0.393)
22. Russian Journal of Chemistry A (0.503)
23. Физика и техника полупроводников (ФТП) (0.705)
24. Ж.Химия растительного сырья (0.532)
25. J. Nanomedicine and Nanotechnology(0.383)
26. American Journal of Physics and Application (0.804)
27. International Journal of Pharmacy and Pharmaceutical Sciences (1.59)
28. Sci-Afric Journal of Scientific Issues, Research and Essays (2.43)
29. Ж. Гелиотехника
30. Journal of Plant Science and Ecology
31. International Journal of Secondary Metabolite
32. İnternational Journal Applied Solar Energy (3.47)
33. Journal of Materials Science and Engineering (USA, İF-1.05)
34. Journal of Environmental Protection (USA, İF-1,01)
35. Biological and Chemical Research (USA, İF)
36. Modern Environmental Science and Engineering (USA, Academic Star Publishing Company)
37. İnternational Journal of Development Research İ.F.-4,25)
38. European Journal of Biotechnology and Bioscience (İ.F.-5,44)
39. International Journal of Pharmacy and Pharmaceutical Research (İ.F.-3,610)
40. *Scientia Agriculturae (JCV): 3.58, İ.F.0,989*
41. *International Journal of Current Microbiology and Applied Sciences* (I J C M A S). ( Impact Factor - 2.015, CODEN (USA) - IJCMO9 Thomson Reuters Researcher ID: P – 1143 – 2015
42. Евразийский Союз Ученых. Биологические науки (Ежемесячный научный журнал). (BEYNƏLXALQ İNDEKSLƏRİ: The Asian education index, İndex copernicus international, Global impact factor (0.388 за 2015 )
43. American Journal of Polymer Science DOI: 10.5923
44. Электронная обработка материалов
45. Высокомолекулярные соединения , серия А
46. Физика твердого тела

# RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTUNUN NƏŞR FƏALİYYƏTİ



# ELMİ ŞÜRASININ FƏALİYYƏTİ



# ELMİ ŞÜRASININ FƏALİYYƏTİ

- Radiasiya Problemləri İnstitutunun Elmi Şurasının tərkibi 23 nəfərdən: 3 müxbir üzvü, 12 elmlər doktoru, 8 elmlər namizədindən ibarətdir.
- 2017-ci il ərzində İnstitutun Elmi Şurasının 17 iclası keçirilmişdir. Bu iclaslarda AMEA Rəyasət Heyətinin qərar və sərəncamları haqqında Elmi Şura üzvlərinə məlumat verilmiş, İnstitut həyatının taleyüklü məsələləri müzakirə olunmuş, elmi və elmi-təşkilati məsələlərlə bağlı qərarlar qəbul edilmişdir. Elmi işçilərin fərdi iş planları, elmi tədqiqatlarda alınmış yeni nəticələr, doktorant, dissertant və onların elmi rəhbərlərinin hesabatları, doktorluq dissertasiya işi mövzuları, dissertantların fəaliyyətinə dair məsələlər müzakirə edilmiş, elmi işçilərin, laboratoriya rəhbərlərinin yeni vəzifələrə seçilməsi, elmi adların verilməsi məsələlərinə baxılmış, xarici ölkələrdə ezamiyyətdə olmuş əməkdaşların hesabatları dinlənilmiş, İnstitutun təsərrüfat və maliyyə fəaliyyəti ilə bağlı məsələlər, kadr hazırlığı, qrantlarda iştirak ilə əlaqədar məsələlər və c. müzakirə edilmişdir. Müxtəlif ölkələrin institutları ilə elmi-tədqiqat sahəsində qarşılıqlı əməkdaşlıq müqavilələrinin aspektləri müzakirə edilmiş və İnstitutun elmi istiqamətinə uyğun əməkdaşlıq müqavilələrinin hazırlanması üçün tövsiyyələr verilmiş, hazırlanmış müqavilələr müzakirə olunmuş və təsdiq edilmişdir. Aktual elmi və texnoloji problemlərin həllinə yönəlmiş proqramlar, RPİ ilə digər İnstitutlar arasında razılaşdırılmış müştərək elmi-tədqiqat Proqramları Elmi Şurada geniş müzakirə edilmişdir.
- İnstitutun Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) 30 ölkəni və 100-dən artıq təşkilatı əhatə edən Nüvə Təhlükəsizliyinə dair Beynəlxalq Tədris Şəbəkəsinə üzv qəbul edilməsi, Kazaxstan Respublikası Energetika Nazirliyinin Nüvə Fizikası İnstitutu ilə imzalanan əməkdaşlıq müqaviləsi, Ukrayna Elmlər Akademiyasının Nüvə Tədqiqatları İnstitutu ilə bağlanan əməkdaşlıq müqaviləsi, Gürcüstan Respublikası Tiflis Dövlət Universitetinin İovel Kutateladze adına Farmokimya İnstitutu arasında bağlanmış əməkdaşlıq müqavilələri müzakirə edilmişdir.
- Elmi Şuranın geniş iclaslarında AMEA RH-nin sərəncamları, qərarları, institutun keçirəcəyi Beynəlxalq konfrans və seminarlar, başqa təşkilatlardan daxil olan məktublar, eləcə də elmi-tədqiqat işlərinin nəticələri müzakirə edilmişdir.

# DİSSERTASİYA ŞÜRASININ İŞİ









# DİSSERTASİYA ŞÜRASININ İŞİ

İnstitutda 2225.01 – "Radiasiya materialşünaslığı", 2305.01 – "Nüvə kimyası"  ixtisasları üzrə D 01.221 saylı elmlər doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya şurası fəaliyyət göstərir. Hesabat ilində həmin şurada İnstitutun dissertant və doktorantları tərəfindən 6 fəlsəfə doktoru, 2 elmlər doktoru alimlık dərəcəsi almaq üçün dissertasiya işi müdafiə edilmişdir.

- 1. Abiyev Hüseyn Əzizulla oğlu (2418.01 – Radiobiologiya) – Biologiya üzrə elmlər doktoru;
- 2. Ələkbərov Aydın Səfərbəy oğlu (2225.01 – Radiasiya materialşünaslığı) – Fizika üzrə elmlər doktoru;
- 3. Fərəcov Sabir Abuş oğlu (2406.01 – Biofizika) – Biologiya üzrə fəlsəfə doktoru;
- 4. Cavanşirova Əfsanə Əbülfət qızı (2305.01 – Nüvə kimyası) – Kimya üzrə fəlsəfə doktoru;
- 5. Rüstəmova Dürdanə Fərhad qızı (2225.01 – Radiasiya materialşünaslığı) – Fizika üzrə elmlər doktoru;
- 6. Balayeva Ofelya Oktay qızı (2317.01 – Nanokimya və nanomateriallar) -  Kimya üzrə fəlsəfə doktoru
- 7. Şükürova Ədalət Əli qızı (2225.01 – Radiasiya materialşünaslığı) – Fizika üzrə fəlsəfə doktoru;
- 8. Məsimova Rəxşanə Məyiş qızı (2225.01 – Radiasiya materialşünaslığı) – Fizika üzrə fəlsəfə doktoru;

İnstitutun elmlər doktorluğu üzrə dissertantı Anar Rüstəmovun doktorluq dissertasiya işinin müzakirəsi keçirilmişdir və 8 yanvar 2018-ci il tarixində BDU-da dissertasiyanın müdafiəsi keçiriləcəkdir. İnstitutun 2 dissertantının fəlsəfə doktorluğu üzrə dissertasiya işi müdafiə üçün Şuraya təqdim edilmişdir.

# PATENT FƏALİYYƏTİ

| SIRA №-Sİ | LAB. №-Sİ | SƏNƏDİN NÖVÜ | İXTİRANIN ADI | MÜƏLLİFLƏR |
|---|---|---|---|---|
| 1 | 2 | İxtira | Butadien-nitril elastomeri əsasında vulkanlaşmış rezin qarışığı | Məmmədli Ş. M., Xankişiyeva R. F., Rzayeva S. V., Əliyeva S. B. |
| 2 | 2 | İxtira | Vulkanlaşmış elastomer qarışığı | Məmmədli Ş.M., Xankişiyeva R.F., Məmmədov C. Ş., Əliyeva S.B. |
| 3 | 5 | Евразийский Патент | «Солнечная установка для горячего водоснабжения». | Саламов О.М., Алиев Ф.Ф., Мамедов Н.Я., и др. |
| 4 | 5 | Patent və Əmtəə Nişanları Mərkəzi Publik Hüquqi Şəxs, 10.30.2017. | Günəş elektroliz qurğusu. | Salamov O.M., Mehdiyeva R.N. |
| 5 | 5 | Патент будет опубликован в Бюллетене ЕАПВ «Изобретения (евразийские заявки и патенты)» № 12 за 2017 г. (дата публикации - 29.12.2017 г.). | «Система принудительной смазки подшипников скольжения на входном и выходном валах пакетного мультипликатора ветродвигателя». | Саламов О.М., Абдуллаев А.И., Саламов А.А. |
| 6 | 5 | Материалы патента опубликованы в Бюллетене ЕАПВ | Рамазанов Н.К. Трехступенчатый мультипликатор для ветроэлектрического агрегата. | Саламов А.А., Саламов О.М., |
| 7 | 5 | Faydalı modelə dair iddia sənədi barəsində məlumatın dərci haqqında QƏRAR | Qanadları döndərən mexanizmi olan külək çarxı. | Salamov O.M. |
| 8 | 5 | İxtiraya dair iddia sənədi barəsində məlumatın dərci haqqında QƏRAR | İstilik tələli yastı günəş kollektoru. | Salamov O.M., Qəribov A.A., Əmrahov H.K. |
| 9 | 10 | İxtira | Sənaye tullantı sularının fenol birləşmələrindən təmizləməsinin radiasiya-adsorbsiya üsulu | Qurbanov M.Ə. Quliyeva Ü.A. Abdullayev E.T. və s.. |

# QRANTLARA ƏSASƏN GÖRÜLƏN İŞLƏR

| | |
|---|---|
| **Qrant hansı fond və təşkilatdan alınmışdır (UNTC)** | |
| **1** | Təbii fəlakətlər nəticəsində çirklənmiş ərazilərin ekogenetik monitoringi (40064 AVRO) 2015-2017 |
| **2** | Nanometal tərkibli yeni növ hepatoprotektorların alınması və bioloji xassələrinin öyrənilməsi (Fiziologiya İnstitutu ilə birgə) (50000$/2) 01.05.2015-01.05.2017 |
| **3** | Triptofan komplekslərinin bəzi bioloji metallarla sintezi və radioprotektiv xüsusiyyətlərinin öyrənilməsi 2017-2019 |
| **4** | Nazik təbəqəli heterokeçidlər əsasında fotokeçiricilərin effektivliyinin artırılmasının riyazi modelləşdirilməsi (Fizika İnstitutu ilə birgə) (100 000 ABŞ$/2) 01.01.2017-01.06.2018 |
| **5** | Qamma və rentgen detektorlarının hazırlanması üçün CdMnTe nazik təbəqələrinin strukturu və xassələrinin optimallaşdırılması (Fizika İnstitutu Elm və Texnologiyalar Parkı ilə birgə) (100 000$/3) 01.09.2017-01.03.2019 |
| **Qrant hansı fond və təşkilatdan alınmışdır (EİF )** | |
| **6** | Yarımkeçirici materialların radiasiyaya davamlılığının tədqiqi və yeni tipli mikro-pikselli selvari fotodiodlar əsasında detektorların işlənilməsi"layihəsi (200 000 AZN) 30.06.2015-30.06.2017 |
| **7** | Qamma şüalarla stimullaşdırma üsulu ilə elastomer materialların alınması və onların struktur, optik, mexaniki xassələrinin tədqiqi (220 000 AZN) 2017-2018 |
| **8** | Neftin su mühitində deqradasiyası və deqradasiyaya uğramış neftlərdən hidrogenin alınması. Bakı Dövlət Universiteti ilə birlikdə: (200 min manat) 2016-2018 |
| **9** | Xüsusi əhəmiyyətli obyektlərin radioaktiv maddələrlə çirklənməsindən mühafizə üçün portal radiasiya monitorunun hazırlanması və təhlükəsizlik məsələlərində tətbiqi (AMEA Yüksək Texnologiyalar Parkı ilə birgə) (250 000 AZN) 2017-2018 |
| **10** | Xarici təsir faktorlarının perimetr mühafizə sistemlərinə təsirinin tədqiqi (AMEA Yüksək Texnologiyalar Parkı, AR MN-nin Silahlı Qüvvələrin Hərbi Akademiyası, Az. Ali Hərbi Təyyarəçilik Məktəbi, BDU, AMEA Elm və Təhsil İdarəsi ilə birgə) (350 000) 2017-2018 |

# RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTUNUN İNNOVASİYA XARAKTERLİ ELMİ İŞLƏRİ

2016-cı il aprel ayının 4-də AMEA Radiasiya Problemləri İnstitutu, RYTN Milli Nüvə tədqiqatları Mərkəzi, Birləşmiş Nüvə Tədqiqatları İnstitutu və ZECOTEK İmaging System arasında Əməkdaşlıq müqaviləsi imzalanmışdır. Razılaşma çərçivəsində 1.1 maddəsinə əsasən yeni MSFD strukturu simulyasiya edilib və Koreyanın NanoFab mərkəzində hazırlanıb.




- 2017-ci ildə Kalobarasiya tərəfindən yeni mikro pikselli selvari tranzistorlar (MSFT) hazırlanmış və yoxlanılmışdır. MSFT-lərin sürətli çıxışında alınan siqnalın amplitudu analoqları ilə müqayisədə 2 dəfə böyük olmuşdur. Təklif edilən yeni struktur nəticəsində gələcəkdə selvari fotodiodların sahəsini, (1sm$^2$ qədər), gücləndirmə əmsalını, xəttiliyi artırmağa və çarpaz görüşməni, tutumu azaltmağa imkan verir. Selvari fotodiodların sahəsinin bu yolla artırılması MSFT yüksək enerjilər fizikası, tibb, kosmik tədqiqatlar və spektroskopiya sahəsində geniş tətbiqinə imkan yaradır.
- Perterfenil və LFS ssintilator əsasında beta zərrəcikləri və qamma şüaları impuls formasına görə ayırd etməyə imkan verən yeni fosvic detektorları hazırlanmışdır. Hazırlanmış detektorla enerjisi 625 keV olan monoenergetik beta zərrəcikləri və 662 keV enerjili qamma şüaları üçün enerji ayırd etməsi 23% və 11.2% alınmışdır. Bu tip fosvic detektor üçün qamma və beta zərrəcik hadisələr nisbəti 37% alınmışdır. Hazırlanmış fosfiç detektorları nüvə reyaksiyaları məhsullarının analiz edilməsi üçün olduqca əhəmiyyətlidir.

# RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTUNUN İNNOVASİYA XARAKTERLİ ELMİ İŞLƏRİ

- MSFD diod və LFS, NaI əsaslı ssintilyator detektorlarının  qamma şüaları qeydetmə həsaslığı öyrənilmişdir. Bu tip detektorlar öz xəttiliyinin çox geniş enerji oblastında saxlamış (26.3keV-1.332MeV) və 662 keV enerjili qamma şüası üçün enerji ayırd etməsi  11%  alınmışdır. LFS əsaslı detektorların minimum qeydetdiyi qamma şüasınnın enerjsi 26,3keV və  NaI əsaslı qamma detektorlarının minimum qeydetdiyi qamma şüasınnın enerjsi 100keV böyük olmuşdur. Bu tip detektor modulları qamma spektroskopiya üçün ən optimal qeydedicilər hesab edilir.




MSFD diod və NaI sintilyator kombinasiyası.
1-MSFD diod, 2-MSFD diod və  Viniston konusu və
3-MSFD diod+Viniston konusu və NaI ssintilyator.

# RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTUNUN İKT TƏTBİQİ ÜZRƏ İŞLƏRİ

2017-ci hesabat ilində AMEA Radiasiya Problemləri İnstitutunun rəsmi veb səhifəsi təkmilləşdirilmiş və sayğac yerləşdirilmişdir.

- RPİ ilə bağlı informasiya daima www.science.az saytında yerləşdirilir.
- RPİ-nin saytı işlək vəziyyətdədir, gündəlik olaraq lazımi informasiya sayta üç dildə yerləşdirilir və daima yenilənir..(http://www.irp.science.az/).
- Elmi Şuranın iclasları, elmi seminarlar, görüşlər,özəl günlərdə keçirilən tədbirlər, əməkdaşların təltifləri, yeni buraxılan monoqrafiya və kitabları, qalib olduqları qrant layihələri haqqında məlumatlar saytın Xəbərlər bölümündə yerləşdirilir.
- Danimarkanın "QUANTUM WISE" firmasından 3 illik lisenziyalı 7000 Avro dəyərində "Atomistix ToolKit" proqramı alınmış, işə salınmış və nəzəri hesablamalar aparılır. Proqram vasitəsilə materialların enerji spektri, elektron strukturu, hal sıxlığı, defektlərin yaranma enerjisi, fonon spektrləri və s. hesablamalar aparılır.
- İnstitutun radiasiya cihazqayırma innovativ tədqiqatların aparılması- **Silisium əsaslı yarımkeçirici MPSF diodların elektronika hissələrinin yığılması üçün-** lisenziyalı mürəkkəb proqram təminatı – Proteus (İSİS və ARES) proqramı- həyata keçirilmişdir.
- İnstitutun bütün laboratoriyaları fiberoptik internet xətti vasitəsi ilə yüksək sürətli internetlə təmin olunmuşdur.
- İnstitutun bütün laboratoriyaları kompüterlə təchiz edilmiş, əsas elmi istiqamətlərinə uyğun yaradılmış nəzəri qruplar uyğun kompyuterlə təmin olunmuş, defekt hallarının öyrənilməsi üzrə proqramlar işə salınmışdır.
- Hesabat ilinin ilk 3 rübündə Vikipediyanın Viki Commons Platformasına İnstitut, laboratoriyalardakı tədqiqat prosesləri və alimlər haqqında ümumilikdə 178 multimedia faylı yüklənmişdir.

# ELMLƏ TƏHSİLİN ƏLAQƏSİ

**Bu işlər ümumi yığıncağın qərarının 3.11 bəndinə əsasən aparılmışdır.**
**Elm və təhsilin qarşıqlı əlaqələri daha da inkişaf etdirilsin, AMEA-da magistratura təhsilindən başlayaraq kadr hazırlığı prosesi daha da təkmilləşdirilsin.**

Radiasiya Problemləri İnstitutunun, radiasiya materialşünaslığı və radiasiya texnologiyaları, nüvə və radiasiya təhlükəsizliyi, nanotexnologiya, radioekologiya, radiobiologiya və qarşılıqlı maraq doğuran digər innovasiya istiqamətlərində elmi-tədqiqat və kadr hazırlığı sahələrində BDU, Azərbaycan Texniki Universiteti, Sumqayıt Dövlət Universiteti, Dövlət Aqrar Universiteti-Gəncə və s. ilə bağladığı əməkdaşlıq müqavilələri əsasında əməkdaşlar

- Azərbaycan Dövlət Memarlıq və İnşaat Mühəndisləri İnstitutunda
- Azərbaycan Aviasiya Akademiyasında
- Bakı Dövlət Universitetində
- Azərbaycan Texniki Universitetində
- Fövqəladə Hallar Nazirliyinin Akademiyasında
- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasında
- Sumqayıt Dövlət Universitetində
- Dövlət Sərhəd Xidməti Akademiyasında
- Xəzər Universitetində
- Kaspi Təhsil Mərkəzində professor və dosent vəzifələrində çalışırlar
- İnstitutda radiasiya materialşünaslığı ixtisası üzrə magistratura fəaliyyət göstərir.

# ELMLƏ TƏHSİLİN ƏLAQƏSİ

**3.9. AMEA alimlərinin dünyanın aparıcı ölkələrinin, o cümlədən Avropa ölkələrinin, habelə Rusiya və Türkiyənin qrant layihələrində aktiv iştirakı təmin edilsin-bu bəhdə uyğun olaraq**

Radiasiya Problemləri İnstitutunun iki laboratoriyası Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elan etdiyi **1-ci Azərbaycan-Rusiya birgə beynəlxalq qrant müsabiqəsi**nə layihə təqdim etmişlər. Hazırda layihələr ekspertiza mərhələsindədir.

Silisium əsaslı mikropikselli struktur əsaslı cəld fotoqəbuledicilərin işlənilməsi və radiasiyaya davamlılığının tədqiqi ” –(Radiasiya cihazqayırma şöbəsi, rəhbər- Süleymanov Samir).

$TlGaSe_2$ və $TlInS_2$ laylı superion kristallar əsasında yeni növ superkondensatorun hazırlanması və tədqiqi”- “Seqnetoelektriklərin radiasiya fizikası” laboratoriyasının rəhbəri, f.-r.e.d., professor Rauf Sərdarlı

Radiasiya Problemləri İnstitutunun üç laboratoriyası Ukrayna Elm və Texnologiya- Mərkəzinin Qrant layihəsində iştirak edir.

Təbii fəlakətlər nəticəsində çirklənmiş ərazilərdə yetişdirilən bəzi kənd təsərrüfatı bitkilərinin ekogenetik monitorinqi (Radioprotektorlar laboratoriyası , Sevil Məmmədli)

Triptofan komplekslərinin bəzi bioloji metallarla sintezi və radioprotektiv xüsusiyyətlərinin öyrənilməsi. (Radioprotektorlar laboratoriyası- Asim Abdullayev)

Nazik təbəqəli heterokeçidlər əsasında fotoçeviricilərin effektivliyinin artırılmasının riyazi modelləşdirilməsi (Fizika İnstitutu ilə birgə, Mətanət Mehrabova)

Qamma və rentgen detektorlarının hazırlanması üçün CdMnTe nazik təbəqələrinin strukturu və xassələrinin optimallaşdırılması- (Fizika institutu və Elm və Texnologiya Parkı ilə birgə)

## 3.18. AMEA-nın elmi müəssisələri Thomson Reuters və digər beynəlxalq elmi bazaların imkanlarından geniş istifadə etsinlər.

Bu bənd ilə əlaqədar AMEA-nın Beynəlxalq Əlaqələr İdarəsi ilə birgə Web of Science bazası üzrə seminar təşkil edilmişdir.

İnstitutun "Polimerlərin radiaiya kimyası və texnologiyası" labor-nın rəhbəri, k.e.d. **Məmmədov Şiraz Məcnun oğlu -**
**American Journal of Polymer Science** - jurnalının redaksiya heyətinin üzvü,
**The Journal of Applied Polymer Science**, **The Journal of Elastomers and Plastics** - jurnallarında rəyçi seçilmişdir.

İnstitutun əməkdaşı, aparıcı elmi işçi **Mehrabova Mətanət Əhməd qızı -**
**Physica B: Condensed Matter** - jurnalının rəyçisi,
ABŞ-ın "Science Publishing Group"-a daxil olan

1. **American Journal of Physics and Applications**,
2. **American Journal of Nanoscience and Nanotechnology**,
3. **International Journal of Materials Science and Applications** jurnallarının redaksiya heyətinin üzvüdür:

İnstitutun əməkdaşı, böyük elmi işçi **Hüseynov Elçin Məmmədəli oğlu**
**American Journal of Nanosciences** – jurnalında Bas redaktor
Springer-in "**Journal of Infrared, Millimeter, and Terahertz Waves**" və "**SILICON**" ,
Elsevier - in "**Journal of Materials Research and Technology**" və "**Physica B: Condensed Matter**" jurnallarında,
"**Modern Physics Letters B**" və "**NANO**" jurnallarında rəyçi şeçilmişdir.

İnstitutun "Radiobiologiya" laboratoriyasının rəhbəri, b.e.d. **Cəfərov Elimxan Süleyman oğlu**
"**Radiobiologiyanın müasir problemləri üzrə Beynəlxalq Şura**"nın (Moskva ş.) üzvü,
«**Радиационная биология и Радиоэкология**» jurnalının (Moskva ş.) redaksiya şurasının üzvüdür.

# ELMLƏ TƏHSİLİN ƏLAQƏSİ

**3.19. AMEA-nın elmi bölmələri və elmi müəssisələri Təhsil Nazirliyinin müvafiq qurumları ilə birlikdə müasir dərcliklərin və elmi-populyar ədəbiyyatların hazırlanmasında aktiv iştirak etsinlər.**

Radiasiya Problemləri İnstitutunda yaradılmış işçi qrup:

1. **Abdullayev Adil - f.ü.elmlər doktoru**
2. **Məmmədov Müslüm - f.ü.fəlsəfə doktoru**
3. **Hüseynov Nizami - f.ü.fəlsəfə doktoru** tərəfindən

1. **Fizika 10-cu sinif üçün dərslik**
2. **Müəllimlər üçün metoduk vəsait**

üzrə rəy, irad və təkliflər hazırlayaraq ***dərslik@edu.gov.az*** və ***bn@bakinneshr.az*** elektron ünvanlarına göndərilmişdir.

# TƏLTİF VƏ MÜKAFATLAR

1. “Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Radiasiya Problemləri İnstitutunun “Nizamsız Bərk Cismlərin Radiasiya Fizikası” laboratoriyasının böyük elmi işçisi, fizika üzrə fəlsəfə doktoru **Elçin Hüseynov** mükafata layiq görülüb.
Alim Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun (EİF) “Ən layiqli alim – Ə.L.A.” məqsədli qrant müsabiqəsi çərçivəsində ilk dəfə keçirilmiş **“2016-cı ilin gənc alimi”** mükafat müsabiqəsinin qalibi seçilib.



# TƏLTİF VƏ MÜKAFATLAR

2.“Polimerlərin radiasiya kimyası və texnologiyası” laboratoriyasının rəhbəri, kimya elmlər doktoru **Məmmədov Şiraz Məcnun oğlu** “İlin nüfuzlu ziyalısı” media mükafatına layiq görülmüşdür

3. “Enerji qənaətedici radiasiya prosesləri” laboratoriyasının rəhbəri, AMEA-nın m.ü., k.e.d., prof. **Mustafayev Islam Israfil oğlu** “Ekologiya və Həyat Fəaliyyətinin Təhlükəsizliyi” Beynəlxalq Akademiyasının həqiqi üzvü seçilmişdir. (22 -də noyabr 2017) Akademiya BMT-də akkreditasiya olunmuşdur.

# AEBA ilə əlaqələr

İnstitut Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) 30 ölkəni və 100-dən artıq təşkilatı əhatə edən Nüvə Təhlükəsizliyinə dair Beynəlxalq Tədris Şəbəkəsinə üzv qəbul edilib.

# TƏKLİF OLUNAN XİDMƏTLƏR

1. Müxtəlif növ material və məhsulların ionlaşdırıcı şüalarla şüalandırılması;
2. Obyektlər, ərazi, ofis, yaşayış sahələri və s. sistemlərin radiasiya fonunun tədqiqi;
3. Material, hazır məhsul, maddələrin radioaktivliyinin tədqiqi, tərkiblərində radioaktiv izotopların dəqiq miqdarının təyini və sertifikatlaşdırılması üçün sınaq aktının verilməsi;
4. İstehsalat sahələrinin radiasiya təhlükəsizliyi üzrə tədqiqi və müvafiq sənədləşmələrin aparılması;
5. Dərman bitkiləri, ərzaq məhsulları və digər məmulatların radiasiya sterilizasiyasının həyata keçirilməsi;
6. Orqanizmlərin radiasiyadan qorunması üçün bitki mənşəli radioprofilaktik ekstraktların hazırlanması;
7. Aqressiv mühitə davamlı müxtəlif formalı rezin-kauçuk məmulatların hazırlanması;
8. Müxtəlif növ ionlaşdırıcı şüaların detektorları və monitor avadanlıqlarının hazırlanması;
9. Müəssisələrin ətraf mühitə zərərli təsirinin qiymətləndirilməsi və lazımi sənədləşmələrin aparılması;
10. Nüvə, radioaktiv və ikilitəyinatlı materiallar, kütləvi qırğın silahları üzrə tədris kurslarının təşkili və metodik göstərişlərin verilməsi;
11. Radioaktiv və nüvə materialları, ağır metallar, üzvü maddələr, politsiklik üzvü birləşmələr üzrə hər cür ekspertiza işlərinin həyata keçirilməsi;

# İNSTİTUTUN İŞLƏRİNDƏ OLAN PROBLEMLƏR

1. Radiasiya Problemləri İnstitutunun 1960-cı illərdə inşa olunmuş binası Elmlər Akademiyası Metro stansiyasının BDU-ya yeni çıxışının tikintisi ilə daha da qəzalı vəziyyətə düşmüşdür. Bununla əlaqədar olaraq İnstitutun binası ya əsaslı təmir edilməli, ya da yeni korpus tikilməlidir.
2. Respublikada fizika, kimya, bioligiya, radiasiya materialşünaslığı, nüvə enerjisinin dinc məqsədlərlə istifadəsi sahəsində çalışan bütün qurumlarda elmi-tədqiqat işlərinin lazımi səviyyədə həyata keçirilməsi üçün yeni elektron sürətləndiricinin alınmasının vacibliyi 2009-cu ilin hesabatında vurğulansa da, bu 2017-ci ildə də yerinə yetirilməmişdir. Hazırda Seçenov adına Moskva Tibb İnstitutunun Azərbaycan filialının binasının zirzəmisində yerləşən elektron sürətləndiricinin demontaj edilməsi və 2018-ci ildə yeni elektron sürətləndiricinin alınaraq quraşdırılması vacibdir.
3. Radiasiya Problemləri İnstitutunun Alternativ enerji mənbələri üzrə təcrübü sınaq sahəsi 2012-ci ilin may ayında Akademiya şəhərciyində aparılan yenidənqurma işləri ilə əlaqədar olaraq sökülmüşdür. Bu sahədə Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 oktyabr tarixli, 462 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nda və **Azərbaycan Respublikası prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"nin AMEA üzrə Tədbirlər Planında** nəzərdə tutulan elmi-tədqiqat işləri həyata keçirildiyindən onun bərpası ilə əlaqədar dövlət büdcəsindən vəsait ayrılması zəruridir.
4. Respublika ərazisində radiasiya təhlükəsizliyi üzrə radioizotop çöl ekspedisiyalarının və izotop mənbələri ilə şüalanma işlərinin aparılması üçün instituta uyğun nəqliyyat vasitəsinin alınması zəruridir